AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# SAHİBKARLIQ VƏ QEYRİ-SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ ƏLAQƏDAR FİZİKİ ŞƏXSLƏRİN GƏLİR VERGİSİ

BAKI – 2026

# Muzdlu işə aid olmayan gəlirlər üzrə fiziki şəxslərin gəlir vergisinin hesablanması, ödənilməsi və faiz dərəcələri

**Sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün:**

- Təqvim ili ərzində ümumi gəlirdən bu gəlirin əldə edilməsi ilə əlaqədar çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğdən **20 faiz** dərəcə ilə gəlir vergisi hesablanır;
- Rüb başa çatdıqdan sonra **15 gün müddətində** cari ödəmələr dövlət büdcəsinə ödənilməli və həmin müddətdə “Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış”, hesabat ilindən sonrakı ilin **mart ayının 31-dən gec olmayaraq isə “Gəlir vergisinin bəyannaməsi”** vergi orqanına təqdim edilməli və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparılmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisi dövlət büdcəsinə ödənilməlidir.

**Qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün:**

- İllik gəlirdən **14 faiz** dərəcə ilə vergi hesablanmalı;
- Muzdlu işçi olmayan fiziki şəxslərə hüquqi şəxslər, fərdi sahibkarlar və ya vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər tərəfindən ödənilən maddi yardım, mükafat və təqaüdlərdən, mediatorlara mediasiya təşkilatları tərəfindən mülki-hüquqi müqavilələr əsasında ödənilən xidmət haqlarından, habelə vəkil qurumlarının tərkibində fəaliyyət göstərən vəkillərə həmin qurum tərəfindən ödənilən gəlirlərdən **14 faiz** dərəcə ilə vergi tutulmalı;

**Qeyd:** vergi orqanlarında uçota alınmayan fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) münasibətdə gəlir vergisi vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda 14 faiz, 2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi miqdarında olmaqla ödəmə mənbəyində tutulur.

- Rezident və qeyri-rezident müəssisə tərəfindən ödənilən dividendlərdən 5 faiz, faizlərdən, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən (Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil edilən mərc oyunlarından, yarışlardan və müsabiqələrdən əldə edilən nağd pul vəsaiti istisna olmaqla) **10 faiz**, fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlərdən **10 faiz**, icarə haqlarından və royaltidən isə **14 faiz** dərəcə ilə ödəmə mənbəyində vergi tutulmalı (bu zaman dividend, faiz, icarə haqqı, royalti, daşınmaz əmlakın təqdim edilməsindən əldə edilən gəlirlər və idman mərc oyunlarından əldə edilən uduşlar digər vergitutulan gəlirdən çıxılır və bir daha vergiyə cəlb edilmir);
- Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan və əlvan və qara metal qırıntılarının, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların, utilizasiya məqsədləri üçün işlənmiş şinlərin təqdim edilməsini həyata keçirən fiziki şəxslərin həmin malların təqdim edilməsindən əldə etdiyi gəlirlərindən onlara ödəmələr həyata keçirən şəxslər tərəfindən xərclər çıxılmadan **5 faiz** dərəcə ilə vergi tutulmalı;
- Vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, qeyri-rezident şəxsin təyin etdiyi vergi agenti və ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud respublika hüdudlarından kənar gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər tərəfindən hesabat ilindən sonrakı ilin **mart ayının 31-dən gec olmayaraq “Gəlir vergisinin bəyannaməsi”** vergi orqanına təqdim edilməli;
- "Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi icra məmurunun fəaliyyətinə görə bir ay ərzində alınan standart və əlavə icra haqlarından (xərclər nəzərə alınmadan) **10 faiz** dərəcə ilə vergi tutulmalı;

- Xüsusi notariuslar tərəfindən vergitutma obyektindən xərclər çıxılmadan **10 faiz** dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği **növbəti ayın 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməli, hər rüb başa çatdıqdan sonra **növbəti ayın 20-dən gec olmayaraq "Xüsusi notariusun gəlir vergisi bəyannaməsi"** vergi orqanına təqdim edilməlidir.
- Əlilliyi olan şəxslərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından əldə edilən gəlirlərindən xərclər çıxılmadan 2 faiz dərəcə ilə vergi tutulur.

## Gəlir vergisindən azaddır

- Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı (təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir) 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirinin **75 faizi;**

**Qeyd 1:** Vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda göstərilən vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir;

**Qeyd 2:** Vergi ödəyicisi vergi güzəştinin tətbiqi məqsədilə yuxarıda göstərilən şərtə cavab vermədikdə və növbəti hesabat ilində mikro sahibkarlıq subyektindən digər kateqoriya sahibkarlıq subyektinə keçdikdə fərdi sahibkarın mikro sahibkar olduğu əvvəlki 3 təqvim ilinin yekunlarına görə hesablanmış və ödənilmiş gəlir vergisinin **75 faizi** həcmində vergi güzəşti müəyyən edilməklə digər sahibkarlıq subyekti olduğu dövrlərdə gəlir vergisi öhdəliyindən çıxılır.

- proqram təminatının işlənməsi sahəsində xidmətlər, layihə-dizayn və dekorasiya xidmətləri, tərcümə xidməti, reklam xidməti, araşdırma və tədqiqat sahəsində fəaliyyət, elm, təhsil, mədəniyyət və idman sahəsində göstərilən xidmətlər, hüquq, sərbəst auditor, mühasibat və maliyyə sahəsi üzrə məsləhət xidmətləri, jurnalistlərin fəaliyyəti, bazar konyunkturunun öyrənilməsi, qiymətləndirmə fəaliyyəti, avtonəqliyyat vasitələri ilə yükdaşımaları istisna olmaqla, sifarişlərin çatdırılması və kuryer fəaliyyəti, turizm bələdçiliyi, xidmətlərin ixracı fəaliyyət növləri ilə məşğul olan və həmin fəaliyyət növlərindən təqvim ili üzrə əldə

etdiyi gəlirlərin (xərclər nəzərə alınmadan) həcmi 45000 manatadək olan fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərinin **75 faizi**;

**Qeyd 1:** Sadalanan fəaliyyət sahələrində muzdlu işçi kimi çalışan fiziki şəxsin əmək müqaviləsinə xitam verildiyi, həmin fəaliyyətlə fərdi sahibkar kimi məşğul olduğu və fərdi sahibkar kimi fəaliyyətə başladığı tarixdən 1 il müddətində eyni xidmətləri tam və ya qismən əvvəlki işəgötürənə göstərdiyi halda, həmin fərdi sahibkara bu güzəşt şamil edilmir;

**Qeyd 2:** Sadalanan fəaliyyət sahələri ilə məşğul olan fiziki şəxs eyni zamanda digər fəaliyyət sahəsi ilə də məşğul olduqda, qeyd olunan güzəşt hüququndan o halda istifadə edə bilər ki, bu fəaliyyət sahələrindən əldə edilən illik gəlirlərin illik ümumi gəlirlərdə xüsusi çəkisi 50 faizdən az olmasın.

- təqvim ili ərzində alınan hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **2500 manatadək** olan hissəsi, mirasların dəyərinin **20000 manatadək** olan hissəsi;
- hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri;
- ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **10000 manatadək** olan hissəsi, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **50000 manatadək** olan hissəsi;

**Qeyd:** Təhsil və ya müalicə (o cümlədən cərrahiyyə əməliyyatı üçün) haqlarını ödəmək üçün maddi yardım, birdəfəlik müavinət almış şəxslərə bu güzəşt o halda verilir ki, həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim edilmiş olsun.

- şəhid olmuş şəxslərin ailə üzvlərinin əldə etdiyi maddi yardımın **20000 manatadək** olan hissəsi;
- Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin əldə etdiyi maddi yardımın **20000 manatadək** olan hissəsi;

  Maddi yardım almış mülki şəxslərə bu güzəşt o halda verilir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəxsin hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edildiyini təsdiq edən arayış təqdim edilmiş olsun.
- Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir;
- qiymətli daşlardan və metallardan, qiymətli daşlar və metalların məmulatlarından, incəsənət əsərlərindən, əntiq əşyalardan və vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə edilən və ya istifadə edilmiş əmlakından, habelə əlvan və qara metal qırıntılarının, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların, utilizasiya məqsədləri üçün işlənmiş şinlərin, xam dərinin vergi ödəyicilərinə təqdim edilməsindən başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlir;
- dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri;
- bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından (o cümlədən, sənaye üsulu ilə) alınan gəlirlər, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar;

- kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin bu sahə üzrə dividend gəlirləri 2023-cü il yanvarın 1-dən 4 il müddətinə;
- sənətkarlığın misgərlik, qalayçılıq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəliri;
- fiziki şəxslərə kompensasiya xarakterli müxtəlif ödənişlər;
- yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri. Beynəlxalq yarışlarda (idman yarışları istisna olmaqla) və müsabiqələrdə pul şəklində alınan mükafatların **4000 manatadək** olan dəyəri;
- respublika, regional, şəhər və rayon yarışlarında (idman yarışları istisna olmaqla)  və müsabiqələrində pul şəklində alınan mükafatların **200 manatadək** olan dəyəri;
- beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları və respublika idman federasiyaları (assosiasiyaları) tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən pul şəklində verilən mükafatların **50000 manatadək** olan dəyəri;
- torpaqların dövlət ehtiyacları üçün alınması zamanı fiziki şəxslərə ödənilən kompensasiya;
- Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezident fiziki şəxslərinin bu parklardakı fəaliyyətdən əldə etdikləri gəlir (əmək haqqından tutulan gəlir vergisi istisna olmaqla) - qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə (Bu güzəşt texnologiyalar parkının

rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərin həmin fəaliyyətdən (o cümlədən həmin fəaliyyətin həyata keçirilməsindən irəli gələrək alıcılara göstərilən təkmilləşmə, texniki dəstək və təlim xidmətləri) əldə etdikləri gəlirlərə münasibətdə də tətbiq edilir);

- texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividend – texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq **10 il müddətinə**;
- yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin hər bir bankda (xarici bankın Azərbaycan Respublikasındakı filialında) milli valyutada olan depozitlər üzrə hesablanan aylıq faiz gəlirlərinin **200 manatadək** olan hissəsi;
- yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin hər bir bankda (xarici bankın Azərbaycan Respublikasındakı filialında) milli valyutada olan depoziti 18 ay və daha artıq müddətə yerləşdirildikdə və depozitin məbləği 18 aydan tez olmayaraq ödənildikdə hesablanan faiz gəlirlərinin tam hissəsi – **3 il müddətinə**;
- 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində respublika ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri;
- Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) **200.000 manatadək** olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan fiziki şəxslərin dividend gəlirləri;
- investisiya təşviqi sənədini almış fərdi sahibkarın əldə etdiyi gəlirin 50%-i - həmin sənədi aldığı tarixdən **7 il müddətinə**;

- qanuna uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;
- lotereya təşkilatçısı tərəfindən keçirilən lotereyalardan və idman mərc oyunları operatoru tərəfindən keçirilən idman mərc oyunlarından pul şəklində əldə edilən **500 manatadək** uduşlar;
- lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər;
- vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin **50 faizi**;
- Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən ödənilən maddi yardım (dəstək);
- Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən zəmanət verilmiş kredit üzrə ödəniş edilməsi hallarında borcalanların borclarının ödənilməsinin nəticəsi kimi əldə edilən gəlirləri;
- mikro və ya kiçik sahibkarlıq subyekti olan və fərdi sahibkar kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir – **3 il müddətinə**;
- KOB klasterin iştirakçısı olan fərdi sahibkarın KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi – **7 il müddətinə**;
- siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən fərdi sahibkarların həmin fəaliyyətdən əldə etdiyi gəlirin 50 faizi - 2024-cü il yanvarın 15-dən **7 il müddətinə**;
- "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq əhali qrupuna daxil olan aktiv istehlakçının bərpa olunan enerji mənbələri hesabına 150 kVt (150 kVt daxil

olmaqla) güc həddinədək istehsal etdiyi elektrik enerjisinin elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə olunan gəlir;

- media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər (o cümlədən reklam gəlirləri), habelə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən verilən maddi yardımlar – 2023-cü il yanvarın 1-dən **6 il müddətinə**;
- Azərbaycan Respublikasında teatr, muzey, simfonik orkestr, habelə film istehsalı, yayımı və dublyajı fəaliyyətinə aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə royalti gəlirləri – 2025-ci il yanvarın 1-dən **5 il müddətinə**;
- filmin istehsalı və dublyajı fəaliyyətini həyata keçirən fiziki şəxslərin və filmin prodüserinin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərin 90 faizi – 2025-ci il yanvarın 1-dən **5 il müddətinə**;
- fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına görə əldə olunan gəlirlər;
- ictimai iaşə fəaliyyəti və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında ƏDV məbləğinin azaldılmasından əldə edilən gəlirlər.
- dövlət-özəl tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaş olan, habelə dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarların həmin layihələr üzrə əldə etdikləri gəlir – müvafiq olaraq “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində və ya “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq.

Əlavə olaraq, gəlir vergisinin ödəyicisi kimi fəaliyyət göstərən **mikro sahibkarlıq subyekti olan fiziki şəxslər** tərəfindən özlərinə görə ödədikləri illik **məcburi dövlət sosial sığorta haqqı məbləğinin 25 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə** vergi ödəyicisinin təqvim ilinin yekunlarına görə hesablanmış və əvvəlki illərin zərəri çıxılmaqla ödənilməli olan **gəlir vergisi öhdəliyindən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır**.

**Qeyd:**

- Gəlir vergisindən azadolunma və güzəşt halları barədə ətraflı məlumatı **Vergi Məcəlləsinin 102-ci maddəsindən** əldə edə bilərsiniz.
- Muzdlu işlə əlaqədar gəlir vergisi barədə məlumatlarla “Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqqı (muzdlu işlə əlaqədar tutulan gəlir vergisi)” bukletində ətraflı tanış ola bilərsiniz.
- İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri barədə məlumatla “İşğaldan azad edilmiş ərazilərdə vergitutma” bukletində ətraflı tanış ola bilərsiniz.
- Gəlirdən xərclərin çıxılması (o cümlədən **amortizasiya və təmir xərcləri**) barədə ətraflı məlumatla Vergi Məcəlləsinin X fəslində və “Mənfəət vergisi” adlı bukletdən tanış ola bilərsiniz.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **“Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş”** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
**www.taxes.gov.az**